

ntss

SAFETY • FIRE • ENVIRONMENT

YANLIŞ TƏTBİQ VƏ İNZİBATİ XƏTA PROSEDURU

EN ISO 9001-ISO 21001

Əlaqəli siyasət: NTSS-QMS-POL-02-AZ

REVİZYA

Reviziya Təsviri	Reviziya №	Reviziya Tarixi
İlkin nəşr	0	28.04.2026

YANLIŞ TƏTBİQ VƏ İNZİBATİ XƏTA PROSEDURU

1. Məqsəd

Bu prosedur, NTSS Malpractice Siyasətinə uyğun olaraq, təlim və qiymətləndirmə proseslərində yarana biləcək yanlış tətbiq (malpractice) və inzibati səhvlərin (maladministration) qarşısının alınması, bildirilməsi, araşdırılması və nəticələndirilməsi ilə bağlı prosesləri müəyyən edir.

2. Əhatə dairəsi

Bu prosedur:

- Bütün namizədləri
- Təlimçiləri
- Qiymətləndiriciləri
- İmtahan nəzarətçilərini
- NTSS əməkdaşlarını
- İş tərəfdaşlarını

əhatə edir.

3. Tərifl ər

Malpractice: Qiymətləndirmə prosesinin bütövlüyünü, nəticələrin etibarlılığını və ya NTSS-in nüfuzunu zədələyən uyğunsuz davranışlar.

Maladministration: Proseslərin və ya prosedurların yanlış tətbiqi nəticəsində yaranan inzibati uyğunsuzluqlar.

Namizəd tərəfindən yanlış tətbiq (Aday malpractice): Hər hansı imtahan və ya qiymətləndirmə zamanı, o cümlədən qiymətləndirmənin hazırlanması və yoxlanılması, eləcə də sual vərəqlərinə cavabların yazılması prosesində namizəd tərəfindən həyata keçirilən yanlış tətbiq deməkdir. Yanlış tətbiq nümunələri aşağıdakılar ola bilər, lakin bunlarla məhdudlaşmır:

- Sertifikatlar daxil olmaqla hər hansı nəticə sənədinin dəyişdirilməsi və ya saxtalaşdırılması;
- İmtahan və ya qiymətləndirmə qaydaları ilə bağlı nəzarətçinin təlimat və ya tövsiyələrinin pozulması;
- İmtahan və ya qiymətləndirmənin təhlükəsizliyini təmin edən nəzarət şərtlərinə

əməl etməmək;

- Başqa namizəddən köçürmək;
- Digər namizədlərin köçürməsinə imkan yaratmaq (məsələn, qiymətləndirmədən əvvəl materialların sosial şəbəkələrdə paylaşılması);
- Başqa namizədin işinin qəsdən məhv edilməsi;
- İmtahan mühitində pozucu davranışlar (aqressiv dil, qışqırıq və/və ya aqressiv hərəkətlər daxil olmaqla);
- Danışıq, elektron, yazılı və ya qeyri-şifahi ünsiyyət vasitəsilə qiymətləndirmə ilə bağlı məlumatların mübadiləsi, əldə edilməsi, ötürülməsi və ya buna cəhd edilməsi;
- Risk qiymətləndirmə layihəsinin müəllifliyi ilə bağlı yanlış orijinallıq bəyanı vermək;
- **Gizli əməkdaşlıq:** İcazə veriləndən artıq digər namizədlərlə birgə işləmək;
- **Kimliyə bürünmə:** Başqa şəxs kimi çıxış etmək və ya başqa birinin imtahanda iştirak etməsini təmin etmək;
- **Plagiat:** Nəşr olunmuş mənbələrdən (internet daxil olmaqla) düzgün istinad vermədən istifadə etmək və ya natamam istinad göstərmək;
- Başqa namizədin işinin mənimsənilməsi;
- İmtahan otağına və ya qiymətləndirmə mühitinə icazə verilməyən materialların gətirilməsi (məsələn: qeydlər, dərs vəsaitləri, planşetlər, mobil telefonlar və s.);
- Kompüter istifadə edilən hallarda yaddaş qurğularından (USB və s.) icazəsiz istifadə
- İmtahanın bütövlüyünü pozacaq davranışlar;

Süni intellektin (AI) sui-istifadəsi: qiymətləndirmə nəticələrinin icazəsiz şəkildə AI alətləri ilə hazırlanması və ya bu istifadənin bəyan edilməməsi.

4. Məsuliyyətlər

Baş Təlimçi

- Prosesi idarə edir
- Araşdırmanı aparır
- Yekun qərarı verir

Təlimçi / Qiymətləndirici

- Şübhəli halları bildirir
- Sübutları qoruyur

İmtahan nəzarətçisi

- Qaydalara uyğunluğu təmin edir
- Pozuntuları hesabatlaşdırır

Namizəd

- Qaydalara riayət etməyə borçludur
- İşlərin orijinal olduğunu bəyan edir

5. Prosedur axını

Şübhəli halın aşkarlanması

Yanlış tətbiq (malpractice) və ya inzibati uyğunsuzluq (maladministration) şübhəsi aşağıdakı yollarla aşkar edilə bilər:

- İmtahan nəzarətçiləri tərəfindən hazırlanmış hesabatlar və müşahidələr,
- Təlimçilər və ya qiymətləndiricilər tərəfindən edilən bildirişlər,
- Sistem yoxlamaları (məsələn, plagiat aşkarlama proqramları, uzaqdan nəzarət qeydləri, rəqəmsal analiz alətləri),
- Üçüncü tərəf bildirişləri (məsələn, namizədlər, işəgötürənlər, dövlət qurumları və ya digər maraqlı tərəflər tərəfindən edilən məlumatlar).

Aşkarlanmış bütün şübhəli hallar gecikmədən qeydiyyata alınır və qiymətləndirilməsi üçün müvafiq məsul şəxsə təqdim olunur.

İlkin qiymətləndirmə

Baş Təlimçi tərəfindən aparılan ilkin qiymətləndirmə nəticəsində aşağıdakı qərarlardan biri verilir:

- İşə alınmaması,
- Əlavə məlumat tələb olunması,
- Rəsmi araşdırmanın başlanması

Araşdırma

Araşdırma çərçivəsində:

- Bütün müvafiq sübutlar toplanır,

- Namizəddən yazılı izahat alınır,
- Zəruri hallarda digər tərəflərin izahatları alınır,
- Proses məxfilik prinsiplərinə uyğun şəkildə aparılır.

Qiymətləndirmə və qərar

Araşdırma prosesində əldə edilən bütün nəticələr tərəfsiz və obyektiv şəkildə qiymətləndirilir.

Qərarvermə prosesində "ehtimalların balansı" prinsipi əsas götürülür. Bu yanaşmaya əsasən, mövcud sübutların ağırlığı nəzərə alınaraq nəticəyə gəlinir.

Qiymətləndirmə nəticəsində aşağıdakı qərarlardan biri qəbul edilir:

- Malpractice (yanlış tətbiq) aşkar edilməmişdir
- Maladministration (inzibati uyğunsuzluq) aşkar edilmişdir
- Malpractice (yanlış tətbiq) aşkar edilmişdir

Qəbul edilən qərar əsaslandırılması ilə birlikdə qeydiyyata alınır.

Qərar Matrisi

Pozuntu növü	**Şiddət**	**İlk pozuntu**	**Təkrar**	**Sanksiya**
Kiçik prosedur xətası	Aşağı	Xəbərdarlıq	Təkrar təlim	Xəbərdarlıq
Plagiat (qismən)	Orta	Balın azaldılması	Uğursuz	Uğursuz
Köçürmə	Yüksək	Uğursuz	Uğursuz + qadağa	Sərt sanksiya
Kimliyə bürünmə	Çox yüksək	Uğursuz	Daimi qadağa	Hesabatlandırma
AI istifadəsi	Orta / Yüksək	Uğursuz	Uğursuz	Qiymətləndirmənin ləğvi

Sanksiyalar

Malpractice (yanlış tətbiq) aşkar edildiyi halda, pozuntunun növü, şiddəti və təkrar olunma vəziyyəti nəzərə alınaraq aşağıdakı sanksiyalar tətbiq oluna bilər:

- Müvafiq qiymətləndirmə və ya imtahanın etibarsız sayılması,
- Namizədin həmin qiymətləndirmədən uğursuz hesab edilməsi,
- Namizədə yenidən qiymətləndirmə hüququnun verilməsi,
- Namizədin təlimi yenidən keçməsinin tələb edilməsi,
- Zəruri hallarda müvafiq akkreditə olunmuş quruma məlumat verilməsi.

Tətbiq olunan sanksiyalar, proporsionallıq və ardıcıllıq prinsipləri çərçivəsində müəyyən edilir və qeydiyyata alınır.

Proporsionallıq prinsipi

Sanksiyalar, pozuntunun növü, şiddəti, qəsd dərəcəsi və təkrar olunma tezliyi nəzərə alınaraq müəyyən edilir.

Bildiriş

Araşdırma nəticəsində qəbul edilən qərarlar müvafiq tərəflərə yazılı şəkildə (elektron mühit daxil olmaqla) bildirilir.

- Bildirişdə qərarın nəticəsi, əsaslandırılması və tətbiq olunacaq sanksiyalar açıq şəkildə göstərilir.
- Korporativ iştirak hallarında nəticələr müvafiq qurumun səlahiyyətli nümayəndələri ilə paylaşılır.
- Zəruri hallarda müvafiq akkreditə olunmuş qurumlar məlumatlandırılır.

Bütün bildirişlər qeydiyyata alınır.

Apellyasiya prosesi

Namizədlər qəbul edilən qərarlara qarşı apellyasiya vermək hüququna malikdirlər.

- Apellyasiyalar qərarın bildirildiyi tarixdən etibarən 5 iş günü ərzində yazılı şəkildə təqdim edilməlidir.
- Apellyasiyalar tərəfsizlik prinsipi əsasında və müvafiq prosedura uyğun olaraq qiymətləndirilir.
- Apellyasiya prosesinin nəticələri müvafiq tərəflərə yazılı şəkildə bildirilir.

Qeydlərin saxlanılması

Malpractice və maladministration proseslərinə aid bütün qeydlər:

- Təhlükəsiz şəkildə saxlanılır,
- İcazəsiz girişlərə qarşı qorunur,

- Məxfilik prinsiplərinə uyğun olaraq mühafizə olunur,
- Minimum 3 il müddətində saxlanılır.


Zəruri hallarda qeydlər müvafiq akkreditə olunmuş qurumlar və ya səlahiyyətli orqanlarla paylaşa bilər.

7. Əlaqəli sənədlər

Bu prosedurun tətbiqi ilə bağlı aşağıdakı sənədlər istinad kimi istifadə olunur:

- NTSS-QMS-POL-02-AZ – Malpractice (Yanlış tətbiq) Siyasəti
- NTSS-QMS-FRM-02-AZ – Malpractice Araşdırma Forması
- İmtahan və qiymətləndirmə qeydləri
- Digər müvafiq qeyd və sübut sənədləri

Əlavə 1: Axın sxemi



Əlavə 2: Şübhəli Yanlış Tətbiq Bildiriş Forması (NTSS-QMS-FRM-02-AZ)

ntss	**ŞÜBHƏLİ YANLIŞ TƏTBİQ BİLDİRİŞ FORMASI**	NTSS-QMS-FRM-02-AZ Rev 0 28.04.2026

1. BİLDİRİŞ MƏLUMATLARI	
Bildirimi edən şəxs	
Vəzifəsi / Ünvanı:	
Qurum (əgər varsa):	
Bildiriş tarixi:	

2. NAMİZƏD / ƏLAQƏLİ ŞƏXS MƏLUMATLARI	
Ad və soyad:	
Təlim / Proqram:	
İmtahan / Qiymətləndirmə növü:	
İmtahan tarixi:	

3. ŞÜBHƏLİ HALIN AŞKARLANMA ÜSULU

☐ İmtahan nəzarətçisi hesabatı

☐ Təlimçi / qiymətləndirici bildirişi

☐ Sistem yoxlaması (plagiat / proktorinq və s.)

☐ Üçüncü tərəf bildirişi

☐ Digər:

4. HADİSƏNİN TƏSVİRİ (Şübhəli halın ətraflı izahı)

5. MÜMKÜN POZUNTU NÖVÜ

☐ Köçürmə

☐ Plagiat

☐ İcazəsiz material istifadəsi

☐ Kimliyə bürünmə

☐ Süni intellektin (AI) sui-istifadəsi

☐ Uyğunsuz / aqressiv məzmun

☐ Digər:

MÖVCUD SÜBUTLAR

☐ Yazılı sənədlər

☐ İmtahan qeydləri

☐ Video / görüntü

☐ Rəqəmsal analiz / sistem çıxışları

☐ Şahid ifadəsi

Açıqlama:

7. TƏCİLİ TƏDBİR TƏLƏB OLUNURMU?

☐ Bəli

☐ Xeyr

Açıqlama:

8. ƏLAVƏLƏR

→ Bu bölmə NTSS tərəfindən doldurulacaqdır.
9. İLKİN QİYMƏTLƏNDİRMƏ
☐ İcraya alınmır ☐ Əlavə məlumat tələb olunur ☐ Araşdırma başlanır Əsaslandırma:
10. ARAŞDIRMA NƏTİCƏSİ
☐ Malpractice yoxdur ☐ Maladministration ☐ Malpractice var
11. QƏRAR VƏ SANKSİYA

12. TƏSDİQ	
Baş Təlimçi:	
İmza:	
Tarix:	

Zəhmət olmasa, doldurduğunuz formanı info@ntss.com.tr ünvanına göndərin.